*Mehriban Mövlamova. Məhəmməd Füzulinin "Türk divan"ında açiq obrazının psixoloji xarakteristkası // Əlyazmalar yanmır, 2018, № 2 (7), s.97-102.*

UOT: 82.0

**Mehriban Mövlamova**
*dissertant*
*Azərbaycan Dillər Universiteti,*
*Bakı şəhəri, H.Cavid prospekti 115*
*m.movlamova@gmail.com*

# MƏHƏMMƏD FÜZULİNİN "TÜRK DİVAN"INDA AŞİQ OBRAZININ PSİXOLOJİ XARAKTERİSTİKASI

**Açar sözlər:** *divan, obraz, Füzuli, sufizm, hüsn kateqoriyası, füzulişünaslıq*
**Keywords:** *divan, image, Fizuli, sufism, category of beauty, fuzuliism*
**Ключевые слова:** *диван, Физули, суфизм, категория красоты, фузуливедение*

*Azərbaycanın dahi şairi Məhəmməd Füzulinin yaradıcılığı ədəbiyyatşünaslığımızda geniş şəkildə öyrənilmişdir. Filoloji fikrin füzulişünaslıq sahəsində sənətkarın ədəbi irsində öz əksini tapan bir çox problemlər araşdırılmışdır. M.Füzulinin, həyatı, bioqrafiyası ilə bağlı məsələlər, ayrı-ayrı əsərlərinin öyrənilməsi şair haqqında kifayət qədər dolğun elmi təəssürat yaratmışdır. Füzuli şəxsiyyətinin bədii obraz kimi canlandırılması da mühüm əhəmiyyətə malikdir. Ədəbi-tarixi şəxsiyyətlərin bədii nümunələrdə təqdimi həm nəzəri aspektdə mühüm məsələlərin öyrənilməsinə şərait yaradır, həm də şairin obrazının tarixi və bədii səciyyəsi arasındakı münasibətləri ifadə etmək baxımından əhəmiyyətlidir.*

Məhəmməd Füzuli yaradıcılığı hələ şairin sağlığında dövrünün məşhur təzkirəçiləri tərəfindən araşdırılmışdır. Qəstəmonulu Lətifinin "Məşairüş-şüəra" əsərindən başlamış M.Tərbiyətin "Daneşməndane-Azərbaycan" təzkirəsinədək Füzuli şəxsiyyəti müxtəlif təzkirələrdə əks olunmuşdur. Əslində, sözügedən təzkirələrdə təqdim edilən məlumatlar şairin obrazının ilkin qaynaqları kimi səciyyələndirilə bilər. Çünki obrazın əsasını təşkil edən məsələlər – şairin atasının və nəslinin kimlərdən olması, gənclik və ahıl çağlarını hansı mühitdə keçirməsi, yaradıcılığna təsir etmiş sosial-siyasi və ruhi-sentimental məqamlar bu qaynaqlarda öz ifadəsini tapmışdır.

Azərbaycan ədəbiyyatşünaslığında Məhəmməd Füzuli irsinin elmi-nəzəri araşdırılmasında İsmayıl Hikmət, Salman Mümtaz, Bəkir Çobanzadə, Əli bəy Hüseynzadə kimi alimlərin rolu danılmazdır. Füzuli yaradıcılığının ilk sistemli və ardıcıl şəkildə tədqiqi isə Həmid Araslının adı ilə bağlıdır. "Böyük Azərbaycan şairi Füzuli" monoqrafiyası şairin həyatı və yaradıcılığı haqqında elmə bir sıra yeni töhfələr vermişdir. Mir Cəlal Paşayevin 1940-cı ildə çap etdirdiyi "Füzulinin poetik xüsusiyyətləri" və 1956-cı ildə nəşr olunmuş "Füzuli sənətkarlığı" monoqrafik tədqiqat əsərləri füzulişünaslıq üçün dəyərli elmi nümunələrdir. Məmməd Cəfərin ümumşərq kontekstində Füzuli mövqeyinin araşdırılmasına həsr olunan "Füzuli düşünür", Mirzəağa Quluzadənin şairin lirik nümunələrinin, ideya-sənət ecazkarlığının təhlilinin ön planda olduğu "Füzulinin lirikası", Fuad Qasımzadənin Füzuli dövrünün fəlsəfi-ictimai problemləri fonunda şairin yaradıcılıq laboratoriyası üzərində apardığı tədqiqatların toplandığı "Qəm karvanı, yaxud zülmətdə nur" monumental monoqrafiyalarında şairin ədəbiyyatşünaslıqda yaradılmış obrazları diqqəti cəlb edir.

Füzulinin bədii obrazı ilk dəfə olaraq elə şairin özü tərəfindən yaradılmışdır. Şairin ədəbi-fəlsəfi irsində müəllif obrazı pərakəndə şəkildə onun yaradıcılıq nümunələrinə səpələnmiş-

dir. Obrazın bədii səciyyəsindəki avtobioqrafik cizgilər daha çox Füzulinin qəsidələrindən, psixoloji məqamlar qəzəllərindən, həyatının önəmli tarixlərinin təsviri isə dibaçələrindən bəhrələnmişdir. Ədəbiyyatımızda lirik, epik və dramatik növdə yazılmış müxtəlif əsərlərdə Füzuli obrazına təsadüf olunmaqdadır. Həmin əsərlərin tədqiqi dahi mütəfəkkirin şəxsiyyəti, əsərlərindən boylanan bədii şair məni, eyni zamanda, dünya ədəbiyyatında oxşar mövqedə dayanan obrazlar ilə müqayisəli şəkildə öyrənildikdə əhəmiyyətli nəticələr verir. Söz sənəti, bütövlükdə, obyektiv varlıqlara subyektiv münasibətin ifadəsidir. Ədibin hiss və həyəcanları nə qədər subyektivdirsə, əsər bir o qədər orijinal və qüvvətli alınır. Akademik Rafael Hüseynovun təbirincə desək, "uşaq öz atasına oxşadığı kimi, Azərbaycan poeziyası da Füzuliyə o qədər bənzəyir" (2, s.157). Füzuliyə həsr olunmuş bütün ədəbi nümunələrin bədii nüvəsini, hərəkətverici qüvvəsini, ilk növbədə, dahi şairin yaradıcılığı təşkil edir. Müəlliflər şairi usanmaz aşiq kimi təsvirə çalışanda onun lirik qəzəllərinə və "Leyli və Məcnun" poemasına, dövrün və zamanın nöqsanlarını əks etdirən şəffaf ayna tək göstərmək istədikdə "Şikayətnamə"sinə, varlıq haqqında düşünən, qocaman filosof şəklində təsvir olunanda isə "Hədiqətüssüəda"sına istinad edərək, şairin elə özünün yaratdığı məcazlardan istifadə etmişlər. Füzuli öz yaradıcılığı ilə Azərbaycan ədəbiyyatının elə bir zirvəsinə çatmışdır ki, ondan daha yüksəyə qalxmaq, onunla bərabərdə dayanmaq qeyri-mümükündür. Şairin ədəbi-fəlsəfi irsinin tədqiqi ilə yanaşı, onun ədəbiyyatımızdakı bədii obrazının öyrənilməsi də əhəmiyyətli və aktualdır. Bununla şairin ədəbi portreti və yaradıcı şəxsiyyətini müqayisə etmək, filoloji fikrimizdə bu sahədə olan boşluğu müəyyən qədər doldurmaq mümkündür.

Qeyd etdiyimiz kimi Azərbaycan ədəbiyyatında "Məhəmməd Füzuli obrazı" probleminin araşdırılmasına şairin öz yaradıcılığından başlamaq lazımdır. Çünki onun lirik qəhrəmanı özüdür. Füzuli yaradıcılığındakı Füzuli obrazının psixoloji məqamlarının təsviri özünü daha çox lirkada büruzə verir. Füzulişünas alim Azadə Rüstəmovanın da qeyd etdiyi kimi, "lirika bütövlükdə Füzuli şeirinin istiqamətverici özəyini təşkil edir" (5, s.9). Belə ki, istər divanların dibaçələrində, istərsə də buradakı bədii nümunələrdə Füzuli obrazı, yaxud da bu obrazı formalaşdıran ana cizgilər mövcuddur.

Füzuli lirikasında öz obrazını, ilk növbədə, aşiq şəklində yaratmışdır. Aşiqlik Füzuli yaradıcılığında sadəcə ruh halı deyil, yaşam tərzi kimi qiymətləndirilir.

*Məndən, Füzuli, istəmə əşari-mədhü zəmm,*
*Mən aşiqəm, həmişə sözüm aşiqanədir (1, s.107*).

Kamal əhli olmanın yolu Füzuliyə görə yalnız aşiqlikdən keçir. Bu səbəbdən də şairin yaradıcılığındakı aşiq obrazı güclü romantik-ekspressiv enerjinin məhsuludur.

*Ey Füzuli, qılmazam tərki-təriqi-eşq kim,*
*Bu fəzilət daxili-əhli-kəmal eylər məni (1, s.207)*

Bu aşiq obrazı şairin lirikasını dərindən araşdıran Mirzəağa Quluzadəyə görə ikili səciyyə daşıyır. Birinci aşiq obrazı filosof və mütəfəkkir şəklində daha çox "Leyli və Məcnun"dakı Məcnuna oxşayır. İkinci aşiq obrazı isə siravi və sadə vətəndaşdır. Alim ikinci aşiq obrazını folklor qəhrəmanlarına bənzədərək, bunu daha çox obrazın dilindəki rəmzlərin, mürəkkəb terminlərin olmaması ilə izah edir. Füzuli lirikasındakı aşiq obrazının bu spektrdən təhlilini doğru hesab etmək olar. Məsələn müqayisə üçün "Türk divan"ından bu beytlərə nəzər salaq:

*Salmasaydım dili-viranə imarət tərhin,*
*Onda gənci-gühəri-eşqi nəhan etməz idim (1, s.213).*
*Canə nə rəvadır ki, çəkib tiğ, dəmadəm*
*Qəmzən sökə cismim, dələ bağrım, tökə qanım (1, s.230).*

Beytlər arasında aşkarca sezilən fərq ancaq termin və ibarələrin olmaması ilə izah edilməməlidir. Bu beytlərdə fərq daha çox aşiqlərin psixoloji məqamında üzə çıxır. Əgər aşiqin birincisi eşq adlı dərdin nə olduğunu şüurlu şəkildə anlayırsa, ikinci aşiq üçün bu xüsusiyyət keçərli deyil. O daha çox sevgilisinin öz qəmzəsi ilə ona əzab verməsindən zövq alır.

Obrazın mayasını təşkil edən eşq bəzən sufi-irfani, bəzən də real-dünyəvi zəmində meydana çıxır. Füzulinin sufi terminologiyadan istifadəsi intensiv xarakterlidir. Şairin lirikasının sənətkarlıq baxımından təhlili bunu deməyə imkan verir. Lakin bu məsələ haqqında füzulişünaslıqda vahid fikir yoxdur. Ancaq deməliyik ki, bu problem ətrafında olan polemikalar bir məsələdə birləşir. Bütün tədqiqatçılar onun yaradıcılığındakı irfani-təsəvvüfi meyli qəbul edir. Fikir müxtəlifliyi ikili xarakterli eşqin hansının daha çox, hansının daha az işlənməsi məsələsində meydana çıxır. Həmin fikirlər də yazılma dövrünə uyğun olaraq üç şəkildə qruplaşdırıla bilər:

1. Sovet rejimi qurulana qədər yazılan ədəbiyyatlar. Bu məqalə və monoqrafiyalarda Azərbaycan (S.Mümtaz, B.Çobanzadə, Ə.Hüseynzadə), eləcə də dünya ədəbiyyatşünasları (İ.Hikmət, M.F.Köprülüzadə, Bertels) Füzuli yaradıcılığını güclü sufi-irfani zehnin məhsulu hesab edirlər.
2. Sovet rejimi dövründə - marksist-materialist ideologiyasının əldə rupora çevrildiyi dövrdə yazılan elmi əsərlər. Burada Füzuli və sufizm məsələsinə qarşı kəskin bir mövqe var. Ədəbiyyatşünaslar (M.Cəfər, M.Quzuluzadə, F.Qasımzadə) şairin yaradıcılığında sufizmi yox səviyyəsinə endirmiş, sufi görüşləri səthi xarakterli hesab etmiş və şairin yalnış yola sapması kimi qiymətləndirmişlər.
3. Çağdaş ədəbi nəzəri fikir isə Füzuli yaradıcılığındakı təsəvvüf məsələsində birmənalı şəkildə birləşərək sufi-irfani təfəkkürü Füzuli şeirinin özülü hesab edir. Tədqiqatçıların bir qismi (A.Rüstəmova, R.Hüseynov) sufi-irfani eşqlə paralel Füzulinin yaradıcılığında real eşqin tərənnümünün də olduğu qənaətindədirlərsə, bir qismi (G.Əliyeva, V.Almasov) şairin yaradıcılığının yalnız təsəvvüfi aspektdən araşdırılmasının tərəfindədirlər.

Bölgünün ikinci qisminə aid etdiyimiz M.Quluzadə şairin yaradıcılığında tərənnüm olunan eşqin böyük hissəsinin real məhəbbət poeziyasına aid olduğu düşüncəsindədir. O yazır: “Füzuli öz yaradıcılığının əsas ideya məzmunu, ruhu və istiqaməti etibarilə sufi deyildir. Onun yaratdığı lirika əsl həyat və məhəbbət poeziyasıdır. Bununla bərabər, şairin əsərlərində təsəvvüf motivləri də müəyyən dərəcədə özünü göstərmişdir” (4, s.235). Bu monoqrafiya 1965-ci ildə qələmə alınmışdır və sosialist realizm təliminin bu əsərə təsiri danılmazdır. 1968-ci ildə Fuad Qasımzadənin “Qəm karvanı, yaxud zülmətdə nur” monoqrafiyasında da məsələnin qoyuluşu buna bənzərdir. Burda yazılır: “Füzuli sufi olmamışdır. Təsəvvüf onun üçün əsas deyildir. Lakin, o, yaradıcılığında sufizm motivlərini də qələmə almış, təsəvvüfə müəyyən dərəcədə yer vermişdir” (3, s.68). Məmməd Cəfər isə Füzuli və sufizmi müharibə edən iki obyekt kimi qiymətləndirmiş və bu müharibənin sonunda Füzulinin sufizmə təslim olmadan qələbə çalmasını alqışlamışdır: “Füzuli sufizm ilə üzləşsə də onda qalib gələn həyat eşqi, dünyəvi hisslər, real düşüncə olmuşdur” (3, s.71).

1980-1990-cı illər füzulişünaslıq üçün müəyyən dərəcədə keçid dövrüdür. Belə ki, V.Feyzullayevanın 1985-ci ildə nəşr etdirdiyi “Füzulinin qəsidələri” adlı monoqrafiyasında Mirzəağa Quluzadə təsiri (sufizmin rəddi) güclüdürsə, Azadə Rüstəmovanın 1994-cü ildə yazdığı “Məhəmməd Füzuli” tədqiqatında müqayisə olunan iki məhəbbətin proporsiyası fərqlidir. Alimə görə, Füzuli yaradıcılığında təsəvvüfi çalarlar daha qabarıq, real sevginin təsviri isə nisbətən azdır. Tədqiqatçı Füzulinin Allahın “ən gözəl əsəri” olan insanın təsviri zamanı yenə də sufi-irfani deyim tərzinə müraciət etdiyini söyləyir. “Beləliklə, Füzuli “Divan”larındakı qəzəllərin böyük əksəriyyəti fəlsəfi-irfani eşq və gözəllik mövzusunu əhatə edir və burada həyatilik və ilahilik bir-birinə qaynayıb qarışır” (5, s.15).

Füzuli heç bir təriqət ordeninə daxil deyildi. Dərviş həyat tərzi də keçirmirdi. Onun yaradıcılığındakı güclü təsəvvüfü qat da “sənət sənət üçündür” prinsipinə çox uyğun gəlir.

Füzulidә tәsәvvüf terminologiyası daha çox şeirin poetik qüvvәsinin güclәnmәsinә xidmәt edir. Doğrudur, Allahı, peyğәmbәri mәdh etdiyi şeirlәrindә bu terminologiya sadәcә "bәzәk" effekti daşımır. Bu şairin qüvvәtli daxili ehtiyacı idi. Güclü iman sahibi olan Füzuli üçün sufi simvolikası әvәzsiz xammal idi. Ancaq real eşqin tәrәnnümü zamanı meydana çıxan sufi sözlәr deyim tәrzini tәkrarçılıqdan azad edәrәk orijinal nümunәlәrin yaranmasına yol açırdı.

*Ol ki, hәr saәt gülәrdi çeşmi-giryanım görüb,*
*Ağlar oldu halimә, birәhm cananım görüb (1, s.68).*
*Oldu әbri-dudi-ahim pәrdeyi-rüxsari-mah,*
*Ah kim almaz cәmalindәn hәnuz ol mәh niqab (1, s.69).*
*Ey mәlәksima ki, sәndәn özgә heyrandır sana,*
*Hәq bilir, insan demәz hәr kim ki, insandır sana (1, s.65).*
*Cam içrә mey ki, dairә salmış hübab ona,*
*Ayinәdir ki, әks salır afitab ona (1, s.45)*

Gәtirilәn ilk iki nümunәdә canan, rüxsar, mah, niqab, cәmal sözlәri tәsәvvüf terminologiyasındaki mәnasından fәrqli yozumdadır. Üçüncü vә dördüncü nümunәlәrdә mәlәksima, cam, mey ifadәlәri sufi-irfani xarakterlidir.

Hәr iki halda bu aşiq obrazının әn xarakterik xüsusiyyәti onun dözümlülüyüdür. Bir sıra nümunәlәrdә rast gәldiyimiz "Әhli-tәmkinәm mәni bәnzәtmә ey gül, bülbülә" (1, s.123), "Mәni zikr etmәz el, әfsaneyi-Mәcnuna mayildir, Nә bәnzәr ol mәnә, dәrdi onun dәrmana qabildir" (1, s.127) kimi misallarda aşiqin öz әqidәsindә necә möhkәm olduğu görünür. Sevgilinin nazı, ona sitәm etmәsi aşiqi usandırmır, әksinә o bunları mәhәbbәti daim tәravәtli saxlayan bir mәqam kimi qiymәtlәndirir:

*Ey Füzuli, yar әgәr cövr etsә, ondan incimә,*
*Yar cövrü aşiqә hәr dәm mәhәbbәt tazәlәr (1, s.131).*

Ancaq bu sәbr Füzuli üçün mövcud vәziyyәtlә barışmaq, yarın ondan uzaq olması ilә razılaşması anlamında qәbul olunmamalıdır. Füzuli bir aşiq kimi statik vәziyyәtin әleyhinәdir. Doğrudur, aşiqin sәbr vә mәtanәti onun mәhәbbәtinin әn ümdә silahıdır. Lakin sәbr işә yaramadığı zamanlarda Füzuli üsyan edir, yarına qovuşmaq üçün yeni yollar axtarır:

*Ey söylәyәn Füzuliyә eşq içrә sәbr qıl,*
*Söylә, bu mәhrәm ilә kimin bitdi yarәsi? (1, s.314)*

Füzuli obrazında rast gәldiyimiz davamlı xüsusiyyәtlәrdәn biri dә nakamlıq, yaxud bәdbәxtlikdir. Qәzәllәrin birindә o deyir:

*Mәn mübtәlayi-hicran, mәndәn iraq canan*
*Vәl-ömrü keyfә ma kan mislür-riyahi rayeh (1, s.91).*

Bu uğursuzluğun sәbәbini Füzuli yenә özündә görür. Şair düşünür ki, daim ah-nalә etdiyinә görә göz yaşı vә pәrişanlıq onun yaxasını buraxmır:

*Degil bihudә kim yağsa fәlәkdәn başimә daşlar,*
*Binasın tişeyi-ahimlә viran etdiyimdәndir (1, s.68).*

Füzulinin lirik mәni gözәllik aşiqidir. Gözәllik anlayışı onun dilindә polisemantik xüsusiyyәtli olub özündә müxtәlif mәna çalarlarını birlәşdirir. Füzulişünas alim Azadә Rüstә-

mova bu haqda yazır: "Həm də bu gözəlliyin meyarı burada (yaradıcılığında – M.M.) ölçüsüz olduğu kimi, məzmun-məna anlamı da vüsətli, əhatəlidir" (5, s.12). Bir çox nümunədə bu gözəllik anlayışı sırf zahiri əlamətlərin təsvirinə yönəldilmişdir.

*Könlüm açılır zülfi-pərişanını görgəc*
*Nitqim tutulur qönçeyi-xəndanını görgəc (1, s.84).*

Yaxud,

*Qaşların yayinə meyl eyləyəli canü könül,*
*Dünü gün mən bilirəm kim, nə çəkirlər anlar (1, s.119).*

Bəzən şairin gözəlliyi ifadə forması dəyişir. Sevgilisinin gözəlliyinin müqayisəsi üçün Şərq ədəbiyyatının "hüsn kateqoriya"sına daxil olan nümayəndələri seçilir. Yusif peyğəmbər ümumşərq obrazları sırasında gözəllik simvolu kimi qəbul olunur. Füzuli də məşuqəsinin gözəlliyinin təkrarsızlığını qeyd etmək üçün onu bu obrazla müqayisə edir:

*İki didəsiz aləmə Yusifü sən,*
*Sizə yox cahan içrə imkani-salis (1, s.81).*

Şairin qəzəlləri ilə paralel qəsidələrində də gözəllik zahiri və daxili aləmin harmoniyasının məhsulu kimi təsvir olunur. Füzulinin qəsidələrini tədqiq edən V.Feyzullayevaya görə, qəsidələrdəki gözəlliyin tərənnümü qəzəllərindən heç də geri qalmır və burada da şair insan gözəlliyini təbiət gözəllikləri ilə müqayisədə verir. Tədqiqatçıya görə, Füzuli insan hüsnünü təbiət gözəlliklərindən daha yüksək tutur.

Füzuli bir obraz kimi qısqanc aşiqdir. Həm də bu qısqanclıq təkcə gözələ deyil "aşiq" adının təkliyinə olan münasibətdə də özünü göstərir. O nəinki, məşuqəsini başqa aşiqə qısqanır, hətta o özündən əvvəl "aşiq" statusu almış Vamiq, Məcnun və Fərhada meydan oxuyaraq eşq dağının zirvəsinin yalnız ona məxsus olduğunu deyir:

*Yazanda Vamiqü Fərhadü Məcnun vəsfin əhli-dərd*
*Füzuli adını, gördüm, səri-tumarə yazmışlar (1, s.139)*

Yaxud,

*Ləbi şirinlərin zövqilə Fərhadi mənəm əsrin,*
*Yanımda cəm olan səngi-məlamət Bisütunumdur (1, s.122).*

Lakin bəzən bu qısqanclıq sadəcə aşiq adını həmdərdləri ilə "bölüşməməklə" bitmir. Füzuli sevgilisinin üzünün başqalarının görməsini belə uyğun hesab etmir. Fərhadın Şirinin şəklini Bisitun dağına çəkməsinə işarə edərək yazır:

*Daşə şəkmiş xəlq üçün Fərhad, Şirin surətin,*
*Ərz qılmış xəlqə məhbubin, əcəb biar imiş (1, s.35)*

Füzuli lirikasındakı Füzuli obrazını araşdırakən nəticəmiz ondan ibarət oldu ki, bu obraz həm Füzulinin özünün epik yaradıclığı üçün, həm də şairin obrazını yaratmış müəlliflər üçün açar rolunu oynamışdır. Şairin aşiq obrazı onun avtoportreti olub müəlliflərə həm lirik-psixoloji cəhətlərin ətraflı şəkildə ifadəsinə istiqamət vermiş, həm də yaşadığı cəmiyyətin əyriliklərinin obyektiv qiymətləndirilməsinə kömək etmişdir.

**Ədəbiyyat:**


1. Füzuli M.S. Seçilmiş əsərləri. Altı cilddə, I cild. Tərtib edəni: Araslı H. Redaktor: Kərimli T. Bakı: Şərq-Qərb, 2005
2. Hüseynov R. Yoxdan var. Bakı: Elm və təhsil, 2014.
3. Qasımzadə F.F. Qəm karvanı yaxud zülmətdə nur. Redaktor: Vilayi M.R. Bakı: Azərnəşr, 1958,
4. Quluzadə M.Y. Füzulinin lirikası. Red: Araslı H. Bakı: Az. SSR EA, 1964,
5. Rüstəmova A.C., Feyzullayeva V.F. Məhəmməd Füzuli: Fikir-sənət dünyası və Türkçə “Divan”ından seçmələr. Redaktor: Öztürk X. Bakı: Qismət, 2005, 276 səh.


**Мехрибан Мовламова**

**Психологические характеристика образа Мухаммада Физули в “Туркском диване”**

***РЕЗЮМЕ***


Физули один из важных имен в азербайджанской литературе. В физуливедениие его творчество исследуется с XVI века. К проблеме образа Физули в художественной литературе надо начинать с его произведений. “Туркский диван” Физули важный источник его психологического портрета.

В статье образ Физули анализируется именно с этой точки зрения. Образ "ашига" - влюбленного привлекается к исследованию как духовный блезнец Физули.


**Mehriban Movlamova**

**Psychological characteristics of the image of Muhammad Fuzuli in "Turkish divan"**

***SUMMARY***


Fizuli is one of the important names of Azerbaijani literature. In Fuzuli studies his work has been studied since the sixteenth century. To the problematic image of Fuzuli in fiction should start with his works. “Turkish divan” Fuzuli is the best source of his psychological portrait. In the article, the image of Fuzuli is analyzed precisely for this point of view. The image of "ashig" - a lover is attracted to the search as a spiritual twins of Fuzuli.



*Redaksiyaya daxil olma tarixi: 25.11.2018*
*Çapa qəbul olunma tarixi: 06.12.2018*

Professor **Alxan Bayramoğlu**
tərəfindən çapa tövsiyə olunmuşdur.